1.qxd 02.04.2021 13:19 Page 1



Azərbaycan dünyaya
günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*

*Xalqın sözü haqq sözüdür*

# LERİK

№ 05-05 (6027-6028) 31 mart 2021-ci il Qəzet 1937-ci ildən çıxır Qiyməti 40 qəpik

## İcra başçısı ikinci dəfə peyvənd olundu



Respublikamızın hər yerində olduğu kimi, Lerik rayonunda da Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq COVID-19 infeksiyasına qarşı mübarizə məqsədilə əhalinin peyvənd olunması prosesi uğurla davam etdirilir. Strategiyanın əsas məqsədi ölkədə yayılmış koronavirus pandemiyasının qarşısının alınmasına, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınmasına nail olmaqdır.

Əhalinin vaksinasiya olunması üçün Lerik Rayon Mərkəzi Xəstəxanasında bütün zəruri tədbirlər görülmüş və lazımi şərait qurulmuşdur.

Hazırda rayonda yaşı 50-64 və 65-dən yuxarı olan vətəndaşların peyvəndlənməsi, həmçinin ikinci doza vaksinin vurulması prosesi aparılır.

19 mart 2021-ci il tarixində Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova və rayon icra hakimiyyəti başçısının müavini Habil Məlikova COVID-19 əleyhinə ikinci doza vurulmuşdur.

Peyvənd olunduqdan sonra vaksinasiya prosesinin gedişatı ilə maraqlanan rayon icra hakimiyyətinin başçısı, xəstəxanada yaradılan şəraitlə də tanış olmuş, peyvənd olunmaqdan ötrü xəstəxanaya gəlmiş rayon əhalisi ilə səmimi söhbət etmişdir. Bildirmişdir ki, cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında pandemiya ilə mübarizə sahəsində görülmüş işlərin kökündə onların sağlamlığı dayanır. Cənab Prezidentin rəhbərliyi sayəsində ölkəmiz vaksin əldə edən ilk ölkələrdən biridir. Bu faktın özü də təsdiq edir ki, ölkə Prezidentimiz cənab İlham Əliyev əhalinin sosial rifah halı ilə yanaşı sağlamlığını da daim diqqət mərkəzində saxlayır. Söhbət zamanı icra başçısı pandemiya ilə bağlı aparılan mübarizə tədbirlərinə, ölkəmizdə elan edilmiş xüsusi karantin rejiminin tələblərinə ciddi şəkildə əməl etməyin hər bir vətəndaşın borcu olduğunu bildirmiş, bu istiqamətdə hər kəsə üzərinə düşən məsuliyyəti dərk etməyi tövsiyə etmişdir.

Rayon icra hakimiyyəti başçısına əhalinin COVID-19 infeksiyasına qarşı vaksinasiya prosesinin yüksək səviyyədə aparılması üçün xəstəxanada bütün zəruri tədbirlər görülməsi, bu məqsədlə ayrılmış xüsusi otaqların TƏBİB-in təlimatlarına uyğun zəruri avadanlıqlarla təchiz edilməsi və günədək Lerik rayonu üzrə tibb işçilərinə, həmçinin yaşı 50-64 və 65-dən yuxarı olan vətəndaşlara ümumilikdə 3705 doza vaksin vurulduğu haqqında məlumat verildi.



## Şəhidlərimizin məzarları ziyarət edildi

Novruz bayramı ərəfəsində Lerik Rayon İcra Hakimiyyətinin başçısı Bövşən Bağırov, aparatın məsul əməkdaşları və rayonun hüquq mühafizə orqanlarının rəhbərləri Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların ailələri ilə görüş keçirdilər.

Lerik şəhərində yaşayan şəhid ailələri ilə görüş zamanı Rövşən Bağırov onların problemləri ilə maraqlandı və şəhid ailələri ilə birgə Lerik şəhər qəbiristanlığında dəfn edilmiş şəhidlərimizin, o cümlədən Vətən müharibəsi Qəhrəmanı Amid Heydərovun və Azərbaycanın Milli Qəhrəmanı Valeh Müslümovun məzarları ziyarət edildi, ruhlarına dualar oxundu.

Həmişə dövlətimizə sədaqəti ilə seçilən leriklilərin müharibə dövründə istər ön, istərsə də arxa cəbhədə fədakarlıq göstərərək qələbəmizin əldə olunmasında öz layiqli töhfələrini verdikləri və onlardan bir çoxunun hərbi əməliyyatlar zamanı şəhid və qazi olduğu vurğulandı. Belə igidlərimizin fədakarlığı nəticəsində möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində böyük qələbənin qazanıldığı, işğal altında olan torpaqlarımızın azad olunaraq ölkəmizin ərazi bütövlüyünün təmin edildiyi və bu möhtəşəm qələbənin Azərbaycanın böyük siyasi, diplomatik və hərbi uğuru olduğu qeyd olundu.

Ziyarət zamanı şəhid ailələri Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin Şuşada, Cıdır düzündə bayram tonqalı qalaması onları bir daha qürurlandırdığını, şəhidlərin qanının yerdə qalmadığını qeyd etdilər. Göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıqlarını bildirdilər.

## Ölkəmizdə əhalinin sağlamlığının qoruması prioritet istiqamətdir

***Milli Məclisdə hər il dinlənilməsi ənənə şəklini almış Nazirlər Kabinetinin ötən il üzrə hesabatını mətbuatda diqqətlə nəzərdən keçirdim. Xatırladım ki, hesabatda Azərbaycanda son bir il ərzində strateji layihələrin icrası, sosial-iqtisadi və digər islahatların həyata keçirilməsi istiqamətlərində aparılan məqsədyönlü tədbirlər barədə ətraflı bəhs olunub. Həmin məsələlərdən biri- qlobal problemə çevrilən yeni növ koronavirus infeksiyasının yayılmasına qarşı respublikamızda görülən işlər haqqında fikirlərimi bölüşmək istərdim.***

Əvvəlcə qeyd edim ki, bu amansız bəlaya qarşı bütün dünyada intensiv qabaqlayıcı tədbirlər görülməsinə baxmayaraq, pandemiyanın qarşısını almaq və onun törətdiyi fəsadları minimuma endirmək səyləri hələ də nəticə vermir. Dünya ölkələrində COVID-19-un getdikcə daha geniş yayılması, infeksiyaya yoluxma və ölüm hallarının kəskin artması müşahidə olunur.

Hazırda bütün dünya ölkələri tərəfindən pandemiya ilə mübarizə davam etdirilir, iqtisadi tənəzzülün qarşısının alınması, böhranın daha da dərinləşməməsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirilir, insanların bu ölümcül virusun qurbanına çevrilməmələri üçün sərt məhdudlaşdırıcı addımlar atılır.



Azərbaycanda da son bir il ərzində hökumət koronavirus infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa rəhbərliyi ilə gerçəkləşdirilən layihələr epidemiyanın yayılma səviyyəsini kəskin azaltmağa və itkiləri minimuma endirməyə, habelə iqtisadiyyatımızın üzləşdiyi geriləmənin qarşısını almağa müsbət təsir göstərib.

Onu da deyim ki, COVID-19 pandemiyası kimi qlobal təhdidə qlobal bir cavab tələb edildiyi bir vaxtda isə bu missiyanı öz üzərinə Prezident İlham Əliyev götürdü və bununla BMT-nin xüsusi sessiyasının çağırılmasını reallaşdırdı. Bu təşəbbüs pandemiyaya qarşı mübarizədə müstəsna əhəmiyyətə malik bir çağırış kimi beynəlxalq aləmin diqqətini çəkdi. Yeri gəlmişkən, məsələ ilə bağlı adı çəkilən ali qurumda keçirilən müzakirələr nəticəsində bəşəriyyəti pandemiyanın cəngindən xilas edə biləcək önəmli qərarlar verildi.

Qeyd edim ki, dövlətimizin başçısının rəhbərliyi ilə respublikamızda yaradılmış tibbi infrastruktur, ölkəmizin potensial imkanları pandemiya ilə əlaqədar mövcud çətinliklərin öhdəsindən gəlməyə və vəziyyəti nəzarətdə saxlamağa tam şərait yaradıb. Bundan başqa, indiyədək COVİD-19-dan zərər çəkən insanların maddi və mənəvi cəhətdən dəstəklənməsi, ölkə iqtisadiyyatına dəyən ziyanın aradan qaldırılması üçün dövlət tərəfindən mühüm tədbirlər həyata keçirilib. Xüsusi karantin rejiminin tətbiq olunduğu şəhər və rayonlarda muzdlu işçilərin əmək haqları üzrə müvafiq ödənişlər aparılıb və fərdi (mikro) sahibkarlara birdəfəlik maliyyə dəstəyi göstərilib, həmçinin işsiz və xüsusi karantin rejiminə görə gəlirini itirən qeyri-formal işləyən aztəminatlı şəxslərə yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmələr edilib.

Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə təkcə insanlar deyil, dövlətlər də bir olmağa, birlikdə mübarizə aparmağa borcludurlar. Bizim isə vətəndaş olaraq aparacağımız mübarizə, üzərimizə düşən məsuliyyət karantin qaydalarına riayət etməkdir. İaşə obyektləri, ictimai nəqliyyat, istənilən qapalı məkan, insanların sıx toplaşdığı yerlər infeksiyaya yoluxmaq üçün əlverişli məkanlardır. Vətəndaşlarımız mümkün qədər bu cür yerlərdən uzaq durmalı, kütləvi tədbirlərdə iştirakdan çəkinməlidirlər. Bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarına riayət etmək, sosial məsafəni gözləmək, tibbi maskalardan istifadə etmək, şəxsi gigiyena qaydalarına əməl etmək hamımızın borcudur.

***Cəlil BAXŞIYEV,***
***YAP Lerik rayon təşkilatının sədri***

## Şəhid ailələrinə ərzaq bağlamaları çatdırıldı



Novruz bayramı öncəsi Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Vəliməmmədova və Qarabağ Veteranları Şurasının sədri Veysəl Məlikov Vətən müharibəsində şəhid olmuş şəxslərin ailələrini ziyarət etmiş, onlara Novruz bayramı ilə əlaqədar rayon icra hakimiyyəti tərəfindən ayrılmış ərzaq bağlamaları təqdim etmişlər.

Şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdar olduqlarını bildirdilər.

Novruz bayramı ərəfəsində rayon icra hakimiyyəti tərəfindən şəhid ailələrinə, Qarabağ əlillərinə və qazilərinə, rayonda yaşayan imkansız ailələrə ümumilikdə 650 ailəyə bayram sovqatı verilmişdir.

## Dövlətimizin milli maraqları həmişə uca tutulub



Müstəqilliyimizin ilk illərində səriştəsiz, idarəetmə qabiliyyəti olmayanların rəhbərliyi altında 20 faizdən çox torpaqlarımız işğal edildi. Ermənistandan 300 mindən çox azərbaycanlı, Dağlıq Qarabağdan bütün azərbaycanlılar qovuldu, Şuşa və Laçın işğal altına düşdü. Həmin illərdə hərbi məğlubiyyət, ölkədə baş verən daxili siyasi çəkişmələr, hakimiyyət-vəzifə uğrunda aparılan mübarizələr ölkəmizin müstəqil ölkə kimi yaşamasını sual altına qoymuşdu. Xalqımızda ümidsizlik hökm sürür, heç bir siyasi qüvvəyə və iqtidara inam yox idi.

Məhz belə tarixi dönəmdə xalqımız öz xilaskar oğluna Heydər Əliyevə üz tutdu və onun ətrafında sıx birləşdi. Heydər Əliyevin zəncin siyasi təcrübəsi, bilikləri və ən əsası xalqına olan sevgisi və təmənnasız xidmətləri nəticəsində Yeni Azərbaycan Partiyası yarandı. 1993-cü ildə hakimiyyətə xalqın təkidli dəstəyi ilə Prezident seçilən Ümummilli Lider Heydər Əliyev dövlətimizi dağılmaqdan, böhrandan qurtardı və ölkəmiz dinamik inkişaf etməyə başladı.

Ümummilli lider istər Sovet İttifaqı, istər müstəqillik dövrlərində hakimiyyətə gələrkən ölkəmiz digər ölkələrdən çox geridə qalırdı. Dahi liderin yüksək məntiqli, uzaqgörən siyasəti və idarəetməsi nəticəsində ölkəmiz hər iki dövrdə qabaqcıl ölkələr sırasında öz yerini tutdu. Ən əsası müstəqillik tariximizdə yalnız Heydər Əliyevin dövründə Onun diktəsi ilə Konstitusiyamız qəbul edildi, 20 Yanvar faciəsinə siyasi qiymət verildi. Ölkəmizin çiçəklənməsində xüsusi önəmi olan “Əsrin müqaviləsi” və digər layihələr imzalanaraq Azərbaycana investisiyalar cəlb edildi və nizami ordu quruculuğuna başlanıldı.

Ulu öndərin ideyaları həmişə dövlətimizin milli maraqlarına xidmət edibdir. Ulu öndərin siyasi varisi olan Prezident cənab İlham Əliyev bu siyasi kursu layiqincə davam etdirir. Ölkəmizdə dinamik iqtisadi inkişaf üçün əsas şərt olan daxili sabitlik mövcuddur. Yeni Azərbaycan Partiyasının keçirilmiş VII qurultayı və 6 siyasi partiyanın YAP-ın qoşulması bunun bariz nümunəsidir.

Eyni zamanda, cənab Prezident İlham Əliyevin qurultaydakı çıxışında bildirdiyi kimi: “Bütün bu illər ərzində bir amalla yaşamışıq: ərazi bütövlüyümüzün bərpa edilməsi, düşmənlərin torpaqlarımızdan qovulması.” Cənab Prezidentin rəhbərliyi altında 44 gün davam edən Vətən müharibəsində milli həmrəylik və Vətən sevgisi ilə şanlı zəfər qazanaraq tarixi ədaləti bərpa etdik. Artıq ölkəmiz yeni tarixi dönəmini yaşayır.

Mən də hər zaman olduğu kimi Yeni Azərbaycan Partiyasında aparılan yenilikləri dəstəkləyir və inanıram ki, bu yeniliklər nəticəsində ölkəmiz daha da inkişaf edəcəkdir.

***Hümbətəli Talıbov,***
***Şinəband kənd sakini***

## Siyasi dialoq uğurla aparılır

Müasir dövrdə siyasi sistemin təkmilləşdirilməsi, siyasi münasibətlərin möhkəm təməl üzərində qurulması Prezident İlham Əliyevin fəaliyyətinin mühüm prioritetləri sırasındadır, hazırda bu sahədə mühüm islahatlar həyata keçirilir. Bunu biz görürük və bu barədə geniş danışmaq fikrində deyiləm. Oxucu diqqətini Yeni Azərbaycan Partiyasının VII qurultayına yönəltmək istəyirəm.

YAP-ın Proqramında irəli sürülmüş əsas vəzifələr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firəvan həyatının təmin edilməsidir. Öz sıralarında 700 mindən çox vətəndaşı birləşdirən bu partiya Cənubi Qafqaz regionunun ən böyük siyasi partiyasıdır. Gələn il partiyanın 30 illik yubileyi keçiriləcək. Partiyanın sədri, cənab Prezident deyib: “Hesab edirəm ki, partiya yeniləşmiş formada, o cümlədən rəhbər orqanlarında təmsil olunan namizədləri nəzərə alsaq daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcəkdir”.



YAP-ın aparıcı olması, onun bundan sonra da güclənməsinə səbəb oldu. Bir neçə dost partiya YAP-a qoşuldu.

Bunu çox əlamətdar hadisə adlandıran ölkə başçısı əmin olduğunu bildirərək deyib ki, bir neçə partiyanın Yeni Azərbaycan Partiyası ilə birləşməsi partiyanı gücləndirəcək.

YAP-ın VII qurultayında qəbul edilmiş qərarlar bir daha təsdiqlədi ki, Yeni Azərbaycan Partiyası cəmiyyətin və dövlətin davamlı inkişafını təmin edəcək, qarşıya qoyulmuş vəzifələrə daha çevik və operativ reaksiya göstərilməsinə imkan verəcək islahatlara açıq olan siyasi qüvvədir. Bununla da siyasi çəkisinə və siyasi sistemdə oynadığı rola görə həmişə fərqlənən YAP struktur islahatlarına gedərək yeni reallıqlara uyğun fəaliyyət göstərəcəyini nümayiş etdirdi.

***Qəhrəman Əliyev,***
***AYB-nın və AJB-nin üzvü, yazıçı-jurnalist***

1.qxd 02.04.2021 13:20 Page 2



# Bu yol ədalət yoludur

***Ölkəmizdə gənclərlə iş sahəsində mühüm tədbirlərin gerçəkləşdirilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin diqqət yetirdiyi mühüm istiqamətlərdən biri də gənclərlə iş olmuşdur. Həyata keçirilən gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən, Vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşdırılması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsidir. Gənclər sahəsində görülən işlərin tarixini ulu Öndərin gənclər siyasəti haqqında qərarları ilə bərabər, yeni dünyanın siyasi fenomeni, eləcə də XXI əsrin qalib sərkərdəsi Prezident İlham Əliyevin dəmir iradəsi, zəfəri hədəfləyən siyasi manevrləri bəzəyir.***



Ölkə rəhbərinin fəaliyyətində hər zaman gənclərə etimad, onların potensial bacarıqlarına xüsusi güvən önəmli yer tututr. Azərbaycanın indiki və gələcək həyatını yenidən şəkilləndirən, həmçinin beynəlxalq platformalarda ölkəmizin siyasi və hərbi imici haqqında yeni müsbət fikirlər formalaşdıran son hadisələr bir növ gəncliyimizin sınağı, böyük etimada qarşı həssaslığımızın reaksiyası kimi də qiymətləndirilə bilər. Bu sınaqdan Azərbaycan gəncliyinin, o cümlədən Müzəffər ordunun sıralarında tarixi düşmənlərimizə qarşı mərdliklə vuruşan əsgərlərimizin üzüağ çıxmasının bünövrəsində hər nə qədər mübarizlik ruhu və iradəsi həlledici rola malik olsa da, bir o qədər də Ali Baş Komandana inam, eləcə də etimad və məsuliyyət tandemi xüsusi əhəmiyyət kəsb etmişdir.

Azərbaycan Prezidenti xalqa müraciəti zamanı bu məqamı dəqiq ifadə edərək demişdi: "Bizim yolumuz ədalət yoludur və beynəlxalq hüquq yoludur. Biz beynəlxalq hüququn kənarında bir iş görməmişik. Ancaq demişəm ki, güc amili ön plana çıxır və biz buna hazır olmalıyıq və hazırlıq işləri gedirdi, bütün bu illər ərzində, həm iqtisadi sahədə, həm beynəlxalq münasibətlər sahəsində, ilk növbədə, ordu quruculuğu sahəsində. Bu gücü topladıq, lazım olan anda vurduq, əzdik düşmənin başını. Elə əzdik ki, onu əbədi yadda saxlayacaq, əbədi . O damğanı vurduq". Bütün sadalanan proseslər Azərbaycan xalqının tarixində misli görünməmiş qələbənin təntənəsi ilə bərabər, Prezidentə sonsuz inam üçün daha böyük stimul formalaşdırdı.

Vətən müharibəsində Azərbaycanımızın hər bir bölgəsindən olduğu kimi qəhrəmanlar diyarı olan Lerik rayonundan da Vətənin dar günündə onun harayına səs verən igidlərin əksəriyyəti könüllü şəkildə Vətəni müdafiə amalı uğrunda döyüşə yollandı. Böyük şücaət göstərən gənc igidlərimiz Vətəni müdafiə etməyi özlərinə ali məqsəd seçdilər. Bunlardan bir çoxu ən ali zirvə olan Şəhidlik zirvəsinə yüksəldi, bir çoxu qazi olaraq evinə döndü.

Şəhidlik adi ölüm deyil, Vətən, torpaq, böyük amallar uğrunda candan keçmək, özünü şüurlu şəkildə qurban vermək deməkdir. Şəhidlik verilmiş ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır. Şəhidlər bizim həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürurumuz, vüqarımız, fəxrimiz, ölməzliyimiz, örnəyimizdir. Bütün yüksəkliklərdən ucada dayanan bir zirvə var: Şəhidlik zirvəsi. Bu zirvəyə qalxmaq hər kəsə nəsib olmur. Özü də ömrünün bahar çağında. Yalnız müqəddəs amallar uğrunda çarpışan, qorxu nə olduğunu bilməyən, Vətən və xalq yolunda canını fəda etməkdən çəkinməyən cəsarətli, ləyaqətli insanlar yüksələ bilərlər bu uca zirvəyə. Vətən, xalq sevgisi idi onlara cəsarət verən, sıralarını möhkəm edən. İndi şəhidlərin ruhları bir mahnıda olduğu kimi Vətən göylərində azad gəzirlər.

Vətən müharibəsində Azərbaycan gənclərinin torpağa bağlılığı, yurd sevgisi, gücü-qüvvəsi, nəyə qabil olduğu açıq şəkildə nümayiş olundu. Bu, xalqın sabahına doğru aydın yolun görüntüsüdür. Müharibənin aktiv fazası cəbhədə cərəyan etsə də, ondan kənarda baş verən proseslərin idarə olunmasına, zəfərə aparan digər siyasi və təşviqat-təbliğat yönümlu həmlələrin dəstəklənməsinə, nəticə etibarı ilə ölkə imicinə xeyir verən trendlərin formalaşmasına vəsilə olmaq, əslində, gəncliyimizin qarşısında duran ən məsuliyyətli vəzifə idi. Bütün Azərbaycan gəncləri, o cümlədən Lerik gəncləri həmin həssas dönəmləri məharətlə idarə edən Prezidentin tezis və çağırışlarına cavab olaraq, həm arxa cəbhədə, həm də sosial platformalarda xüsusi fəallıq göstərir, öz sözlərini deyirdilər. Lideri ilə eyni hissləri bölüşən Yeni Azərbaycan Partiyası Lerik rayon təşkilatının gəncləri ölkə rəhbərinin yerli televiziyalarda söylədiyi nitqləri, həmçinin dünyanın aparıcı media qurumlarına verdiyi qətiyyətli müsahibələri diqqətlə izləyərək daha sarsılmaz iradə ilə düşmənlərimizə qarşı müxtəlif dillərdə bütün sosial platformalarda mübarizə aparır, Azərbaycanın haqlı savaşından vaz keçməyəcəyini, hamılıqla yalnız qələbə üçün səfərbər olduğumuzu dünyaya bəyan edirdilər.

Azərbaycan durduqca Ümummilli lider Heydər Əliyevin və İlham Əliyevin adları qoşa çəkilməli, milli birliyin, qətiyyətin və qüdrətin simvolu kimi dövlət rəmzlərində və bayrağımızda yaşamalı, poeziya və nəğmələrimizdə tərənnüm edilməlidir. Təkcə ona görə ki, yaşı minilliklərin dərinliklərinə gedən, kökü, əsli-nəcabəti bəlli olan bir xalqın ləyaqətini, qeyrətini, kişiliyini, mərdliyini, mübarizliyini, döyüşkənliyini,eyni zamanda, sülhsevərliyini, qəlbinin genişliyi və mərhəmətini bütün dünyaya əməlləri ilə sübut etdi.

***Nüsrət Kərimov,***
***YAP Lerik rayon gənclər təşkilatının sədri***

# Cənab Prezidentin cavabı



Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı dünya ictimaiyyətinə ən böyük mesajlarından biri idi. Silahlı qüvvələrin Ali Baş Komandanı Xocalı soyqırımı haqqında danışarkən bu soyqırımı törədənləri əsl adları ilə hərbi cinayətkar adlandırmış, həmin cinayətkarların bir çoxunun ikinci Qarabağ müharibəsində Azərbaycan Ordusu tərəfindən məhv edilməsini diqqətə çatdırmışdır. Cənab Prezidentin dediyi kimi 1992-ci ildən son hadisələrə qədər erməni faşizmi Azərbaycan xalqına böyük zərbə vurmuşdur. Hərbi təxribatlar, dinc əhaliyə qarşı qəddarlıq, şəhərlərimizin, kəndlərimizin atəşə tutulması, eyni zamanda, İkinci Qarabağ müharibəsi dövründə ballistik raketlərlə dinc şəhərlərin bombalanması - bütün bunlar erməni faşizminin təzahürləridir.

Xocalı soyqırımı dünya ictimaiyyəti tərəfindən tanınır, 10-dan çox ölkə hadisəni rəsmən soyqırım kimi tanımış, təsdiq etmişdir və bu proses davam etdirilir. 2012-ci ildə Pakistan Senatı Xocalı Soyqırımının tanınması barədə qətnamə qəbul etmişdir. Faciəni parlament səviyyəsində qətliam kimi tanıyan ölkələrdən Meksika, Kolumbiya, Çexiya, Bosniya və Hersoqoviniya, Peru və digər ölkələrin adlarını çəkmək olar, eyni zamanda Xocalı soyqırımını qətliam kimi tanıyan ABŞ-nın 21 ştatı soyqırım haqqında müvafiq qətnamələr qəbul etmişdir. 24 fevral 2008-ci il tarixdə Hollandiyanın Haaqa şəhərində ermənilərin Xocalıda törətdikləri soyqırıma etiraz əlaməti olaraq Xocalı abidəsi ucaldılmışdır.

Konfransda çoxlu xarici və yerli media nümayəndələrinin iştirakı müxtəlif səpkidə olan sualların səslənməsi üçün yaxşı fürsət idi, lakin İran İslam Respublikasını təmsil edən xanım jurnalistin sualına diqqət çəkmək istərdim. İranın "Mehr" agentliyinin müxbiri öz növbəsində Cənab Prezidentə belə bir sual ünvanlayır:

- Bu gün terrorçuluq dünya üçün təhdiddir. Qarabağ müharibəsi zamanı regionda terrorçu qrupların fəaliyyət göstərməsi barəsində xəbərlər yayılırdı. Bu isə region üçün böyük təhlükədir. Burada hansı kollektiv səylər göstərilməlidir? Bununla bağlı Azərbaycan Respublikası tərəfindən hansı addımlar atılacaqdır?

Cənab Prezident İlham Əliyevin: "Bir məsələni aydınlaşdırmaq istəyirəm. Siz müharibə zamanı terrorçu qrupların fəaliyyət göstərməsi haqqında danışırsınız, hansı məlumatlara, kim tərəfindən verilən məlumatlara istinad edirsiniz?" sualı ilə iranlı xanım müxbirin qərəzli tərəf tutması bütün dünya ictimaiyyətinin qarşısında üzə çıxarmış oldu. Daha sonrakı dialoqda xanım müxbir yaranmış vəziyyətdən çıxmaq üçün sualına aydınlıq gətirmək məcburiyyətində qaldı. Cənab Prezident İlham Əliyev bildirdi ki, sual bir növ ittiham formasındadır. İstənilən məlumat haqqında danışmaq olar, ancaq mənbə qeyd edilməlidir! Xanım müxbir mənbə göstərə bilmədiyindən ad çəkmək istəmədiyini qeyd etdi, lakin Cənab Prezidentin bu sözləri təkcə İran mediasına deyil, həm də dünyaya bir mesaj idi.

Kimisə ittiham etmək asandır, siz onu sual formasında verə bilərsiniz, ancaq burada mahiyyət dəyişmir

Tarixi torpaqlarımızın azad olunması uğrunda aparılan əməliyyatlarda heç bir terrorçu iştirak etməyib, bu məqsədyönlü şəkildə uydurulmuş bir hekayədir. Bu qələbəni Azərbay Ordusu qazanıb.

Adətən belə ittiham xarakterli bəyanatlar Ermənistan mediasından gələndə müəyyən mənada anlaşılandır, çünki onlar üçün bu, psixoloji cəhətdən ağrılı bir məsələdir - Azərbaycan əsgəri onları məğlub edib. Cənab Prezidentin də dediyi kimi iranlı xanım müxbirə tövsiyə edərdim ki, məsuliyyətini və təmsil etdiyi ölkənin Azərbaycanla olan dostluq münasibətlərini dərindən dərk etsin. Qeyd edim ki, Azərbaycan-İran əməkdaşlığı çox yaxşı səviyyədədir. Müharibədən sonrakı dövr yeni imkanlar yaradır. İran şirkətləri dağıdılmış ərazilərdə yenidənqurma işlərində iştirak etməkdə maraqlıdırlar. Azərbaycandan olan yüksək səviyyəli nümayəndə heyəti İranda səfərdə olmuşdur. Burada əməkdaşlığımıza bağlı vacib məsələlər, o cümlədən Xudafərin su anbarının birgə ifadəsi də müzakirə edilib, elektrik stansiyalrının inşasına dair İran tərəfi ilə razılıq əldə olunub. Xudafərin və Qız qalası elektrik stansiyalarının tikintisi ilə bağlı büdcə ayrılıb. Yeni vəziyyətlə əlaqədar çoxlu imkanlar var. İranla dövlət sərhədimizi bərpa etdik, onun 132 km-lik hissəsi işğal səbəbindən bizim nəzarətimizdə deyildi. Artıq biznes üçün yeni imkanlar açılır. Tarixi torpaqlarımızda aparılan yenidənqurma işləri zamanı tikinti, nəqliyyat və digər sahələrdə İranla əməkdaşlıq edilir.

***Ramal Məstiyev,***
***Lerik şəhəri***

# Ulu Öndər Heydər Əliyevin şah əsəri

Azərbaycan dövləti müstəqillik dönəmində yarıtmaz, kreslo davası aparan hakimiyyət hərislərinin uğursuz idarəçiliyi nəticəsində məhv olma, dünya xəritəsindən silinmə təhlükəsi ilə üz-üzə qalmışdı. Xalqın təkidi ilə ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıdandan sonra dövlətimiz bu təhlükədən sovuşdu və inkişaf etməyə başladı. Amma anti Azərbaycan qüvvələri və siyasi müxalifət daim ölkəmizi parçalamağa çalışırdılar. 1995-ci ilin martında bu qüvvələr dövlət çevrilişinə cəhd edərək silahlı qiyama qalxdılar. O vaxtı "OMON"-çular DİN-nin tabeçiliyinə girmədilər. Ölkə başçısının çağırışlarına məhəl qoymadılar, dövlətə müqavimət göstərməyə cəhdlər edərək qiyamçı dəstələrə çevrildilər. Ümummilli Lider Heydər Əliyevin gücü - Azərbaycan xalqının dəstəyi və uzaqgörən siyasəti ilə bu çevrilişlərin qarşısı alındı və qiyamlar yatırıldı.

Ulu Öndər Heydər Əliyevin bir tarixi missiyası olub: Azərbaycanın bütövlüyünü qorumaq. Həmin dövrlərə nəzər yetirəndə bir daha əmin oluruq ki, Azərbaycan xalqı daima ölkə daxilində qarşıdurma yaratmaq istəyənləri dəstəkləmir və onları müdafiə etmir. Xalqımız həmişə haqqa, ədalətə inanıb dəstək olur, xəyanətkarların cəzalandırılmasını, cinayətkar əməllərə son qoyulmasını tələb edir.

Azərbaycan xalqın müstəqillik iradəsi dönməzdir və əbədidir. Ulu Öndərin qurub miras qoyduğu Azərbaycan dövləti onun layiqli siyasi varisi cənab İlham Əliyev tərəfindən layiqincə idarə olunur və dinamik inkişaf edir. Onun hər bir kəlməsi, addımı Azərbaycan xalqının mənafeyinə, rifah halının yaxşılaşmasına xidmət edir.

***Hümbətəli Talıbov,***
***Əmək veteranı***

# Şuşanın fatehi Ramiq Tağıyev ölməzdir




*(Əvvəli ötən sayımızda)*

Şuşa! Şuşanın Azərbaycan tarixində xüsusi yeri var, Qarabağın tacı hesab olunur, qala-şəhərdir. Şuşa Azərbaycanın mədəniyyət mərkəzi, musiqi akademiyasıdır, tarixi-mədəni abidələri ilə zəngindir. Ermənistanın baş naziri Nikol Paşinyan qəbul edir ki, Şuşa Azərbaycan şəhəridir və əhalinin mütləq əksəriyyəti azərbaycanlılardan ibarətdir. İşğal dövrünə qədər bu şəhərdə daim azərbaycanlılar yaşamışlar. Düşmən Şuşanı zəbt etməklə şuşalıların, bütün xalqımızın ruhuna toxunmuşdu. Düşmənin kəsif iyini belə qəbul etməyən Şuşa Azərbaycan əsgərinin yolunu gözləyirdi ki, onu buxovdan azad etsin.

Şuşa cəsur və qəhrəman əsgər və zabitlərimiz tərəfindən çətin döyüş tapşırıqlarının yerinə yetirilməsindən sonra azad edilib. Şuşanın yerləşdiyi çətin coğrafi şərait hərbi qulluqçularımızın işini bir qədər çətinləşdirsə də, onlar döyüş texnikasız sıldırım və keçilməz daş qayaları, meşə massivlərini aşaraq inanılmaz cəsarət və rəşadət, xüsusi peşəkarlıq göstərərək düşməni məhv etdilər, şəhərə sahib çıxdılar.

Noyabrınm əvvəlində Daşaltı uğrunda şiddətli döyüşlər getdikcə yeni məcaraya yönəlirdi. Məğlub olacağını başa düşən düşmən gülləyə və mərmiyə qənaət etmir, arası kəsilmədən atəş açırdı. Xüsusilə minamyot atəşləri təhlükəli idi. Baş leytenant Xəyyam Əzizovun manqası hər bir çətinliyə sinə gərir, nə düşmənin şiddətli atəşi, nə də qarşıda duran çətin vəzifə - Şuşa qala - şəhərin azad edilməsi üçün qəbul edilən mürəkkəb əməliyyat planı onu və əsgərlərimizi rihdan salırdı. Çünki, Şuşanın azad edilməsi düşmənin süqutu, məğlubiyyəti demək idi. Ona görə də çarəsiz bir vəziyyətə düşərək vurnuxur, nə düşmənin döyüş texnikası, nə də çoxsaylı canlı qüvvəsi əsgərlərimizin qarşısını kəsə bilirdi.

Xəyyam həlledici döyüşdən qabaq əsgər yoldaşları gizir Ramiq Tağıyevə, baş gizir Tarzən Haşımova və digər döyüşçülərə dedi:

- İgidlərim, qardaşlarım, biz bir neçə saatdan sonra Şuşa uğrunda döyüşə girəcəyik. Artıq bir neçə rayonu azad etmişik. Şuşa əməliyyatının zəfərimizlə başa çatması bizdən çox asılıdır. Qarşımızda yüksəkliklər, çətin keçilən dağ-meşə cığırları durur. Biz sıldırım qayalar üzərindən qalxaraq, qətiyyətli həmlə etməklə düşməni məhv etməliyik. Unutmayın ki, sizin Şuşanın azad edilməsində göstərdiyiniz qəhrəmanlıq barədə çox danışılacaq və yazılacaq. Vətənin gözü bizdədir. Qələbə bizimlədir.

Xəyyam Əzizovun döyüşqabağı nitqi döyüşçü dostlarınıqəti qələbəyə ruhlandırdı. Xüsusilə də gizir Ramiq Tağıyevə təsir etdi. O əsgərlərə müraciətlə dedi:

- Komandirin tapşırığı bizə verilən bir əmrdir. Bu təkcə əmr deyil, Vətən qarşısında borcumuzdur. Biz Vətən yolunda şəhid olmağa hazır olmalıyır. Qələbə çox yaxındır, biz artıq Şuşanı da alacağıq, bayrağımızı orada dalğalandırıb Vətəni, xalqımızı sevindirəcəyik, düşmənin ədalətsiz işğalına son qoyacağıq...

## Həlledici an gəldi

Ramiqin silahdaşlarına, can qardaşlarına dediyi sözləri onlar döyüşqabağı tapşırıq kimi qəbul etdilər...

Nəhayət, həlledici vaxt gəlib çatdı. Nə düşmənin atdığı mərmilər, nə də güllə yağışı, hər an gözlənilən ölüm qorxusu Vətən torpağının xilası uğrunda şir tək döyüşə atılmış yenilməz əsgərlərimizin qarşısını ala bildi. Əmr gəldi: "Şuşanın azad edilməsi uğrunda irəli!".

Döyüşün şiddəti artırdı. Şuşanın alınması Qarabağın alınması, düşmənin süqutu demək idi.

Ermənilər döyüşdə böyük itki versələr də müqavimət göstərməyə cəhd edirdilər. Ancaq qəhrəman əsgərlərimizin qarşısında aciz idilər. Düşəmən snayperinin gülləsi Xəyyam Əzisovun başındakı dəbilqəyə dəysə də sovuşub kənara düşmüş, komandirin beynini silkələmişdi. Buna baxmayaraq o döyüşü idarə edir, silahı yerə qoymurdu. Çünki qələbə yaxında idi, qələbədən doğun sevinci duymağa çox qalmamışdı.

Ramiqin sərrast atəşi onlarla düşməni gəbərtmişdi. O, yaralıları döyüş meydanından çıxarır, sonra döyüşü davam etdirirdi. Ramiq Hadrut döyüşləri zamanı yaralı Tarzən Haşımovu iki dəfə xilas etmişdi. İndi isə... O, düşmən gülləsindən şəhid olmuşdu.

Silahdaşını itirmək necə də ağır idi... Şuşanın fatehi Vətənə borcunu verərək, şəhidlərimizin qisasını alaraq şəhadətə qovuşmuşdu...

## Can verdilər, qan aldılar

Düşmənin atdığı minomyot qəlpələri Xəyyam Əzizovdan yan ötmədi. Onun bir ayağı ampultasiya olsa da qanaxmanın qarşısı alındı, ona ağrıkəsici iynələr vurdular.

- Can, qardaş, qorxma, hər şey keçib gedəcək, - deyərək Ramiq Xəyyamı dalda bir yerə apardı. Özü isə yaralıları xilas etməkdə, onları atəş altından çıxarmağa davam etdi.

Xəyyam çox qan itrimişdi, ürəyi bulanır, hərdən huşsuz vəziyyətə düşürdü. O yenidən özünə gəldi, bir qədər özünü yaxşı hiss etdi. Görünür, əcəl zəngi hələ çalınmamışdı. Xəyyam yanındakılardan soruşdu:

- Bəs Ramiq hanı?

Döyüş dostları huşsuz halda uzanmış Ramiqə baxıb suala göz yaşları ilə cavab verdilər.

- Ramiq şəhid olub, - deyən əsgər yoldaşı Xəyyama təskinlik vermək istəsə də bunu bacarmadı.

Kəlvəz kəndində yaşayan dayısı, bacısı oğlunu özü qədər istəyən Rasim Əhədov Ramiqin şəhid olması xəbərini eşidib dedi:

- Məni özünə bu qədər niyə bağladın? Sənsizlik əbədi bir yük olacaq. Vətən, qələbə isə həmişə səninlə olacaq...

Xəyyam dedi:

- Gətirin Ramliqi mənimlə yanaşı qoyun, onsuz mən çətin ki, yaşayayam... Ramiq mənə qardaşdan da yaxın idi. Can-candan necə ayrıla bilər?

Axşam olur. Xəyyam yuxu görür. Görür ki, Şuşa düşməndən təmizlənib. Şəhərdə onları gül-çiçəklə qarşılayıb ehtiram göstərirlər. Kimsə deyir: "Biz 27 il idi ki, sizi gözləyirdik, harada qalmışdınız, əziz qardaşlarımız?"

Oyandı. Bir tərəfi bərk ağrı verirdi. "İlahi, nə günə qaldım? İndi mən bu ayaqla hara gedim? Niyə dostlarım məni ölməyə qoymadılar, dostlarımla birlikdə şəhid olmadım? Yox, mən Ramiqsiz yaşaya bilmərəm..."

Ruhi sarsıntılar ona son qərarı verməkdə kömək etdi. Xəyyam sarğıları açdı. Getdikcə ölüm mələyi onu ağuşuna aldı, ruhu dostlarının, Ramiqin ruhuna qovuşdu...

* * *

Bu Vətən müharibəsi digər müharibələrdən fərqli oldu. Bunu dünya da gördü. Vətən müharibəsində qazandığımız qələbə Azərbaycan Ordusunun Vətənə hesabatı oldu. Vətən müharibəsində iştirak etmək, qələbə qazananlarla yan-yanaşı sevinmək bizim də taleyimiz oldu. Bu xoş tale ömrümüzün bundan sonrasının başlanğıcıdır...



Vətən uğrunda döyüşmək, onu sevmək və qorumaq Azərbaycan əsgər və zabitlərinin, Xəyyamın, Ramiqin, Tarzənin əsas vəzifəsi idi. Onların ən böyük qəhrəmanlığı Vətən naminə edildi. Onlar Şuşanın fatehi adını qanları bahasına qazandılar, vədlərinə əməl edib bayrağımızı Qarabağda dalqalandırdılar. Onlar 44 günlük Vətən müharibəsinin hər günündə əsrə bərabər yol keçdilər. Şuşada həqiqət qalib gəldi, babalarımızın ruhu sevindi.

"...Döyüş paltarına, şəkillərinə, qələmdəftərlərinə baxıram. Susuruq, Ramiq Teymur oğlu Tağıyevin şəkilləri, əşyaları sözsüz, səmirsiz "danışır".

Sanki canını Vətənə fəda etmiş şəhid Ramiq Tağıyev haqqında dastan deyir...

Bütün leriklilər, əsgər yoldaşları Ramiq Tağıyevlə, onun kimi cəsur övladları ilə qürur duyurlar.

Prezident İlham Əliyevin sərəncamı ilə Ramiq Tağıyev, Füzulinin, Cəbrayılın, Xankəndin, Şuşanın alınmasına görə, "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə "Azərbaycan bayrağı" ordeni ilə təltif edilib. O, bütün təltiflərə layiqdir. Eşq olsun Ramiq Tağıyevə, bizi qaldırdı göyə!

***İdris Şükürlü***

# Prezidentin səsləndirdiyi fikirlər diqqət mərkəzində olub

Prezident İlham Əliyev fevralın 26-da yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirərək jurnalistlərin çoxsaylı suallarına ətraflı cavab vermiş, respublikamızın Vətən müharibəsində şanlı qələbəni şərtləndirən amillərə və bu qələbə sayəsində regionda yaranan yeni reallıqlara diqqəti yönəltmiş, ölkəmizin işğaldan azad olunan ətrazilərdə reallaşdıracağı bərpa planlarından ətraflı bəhs etmişdir. Mətbuat konfransında dövlətimizin başçısı yüksək diplomatik məharət, natiqlik nümayiş etdirib, bütün aktual məsələlərə məntiqli faktlar əsasında münasibət bildirmişdir. Ölkə başçısının mətbuat konfransında səsləndirdiyi fikirlər böyük əhəmiyyətə malikdir və bizim hər birimizin ürəyimizdən xəbər vermişdir.

Prezident İlham Əliyev bir daha vurğuladı ki, artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur və Azərbaycan öz ərazi bütövlüyünü təmin edib. Əgər Ermənistan hazırkı istisadi cəhətdən bitkin, siyasi cəhətdən isə xaosdan qurtulmaq istəyirsə, yeni reallıqları qəbul etməli və regional əməkdaşlıqda yer almalıdır.

Ermənistanın uzun illər boyu Azərbaycana qarşı apardığı işğalçı siyasətin, onun nəticələrinin dünya ictimaiyyətinə çatdırılmasında böyük rolun olması baxımından bu mətbuat konfransının çox böyük əhəmiyyəti vardır.

Adıçəkilən mətbuat konfransında Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə mərhələli əsasdan quruculuq və bərpa işlərinin, nəqliyyat-loqistika planlarının reallaşdırılması və onların əhəmiyyəti barədə geniş məlumat verdi. Biz cəmiyyət olaraq bu fəaliyyətə yaxından dəstək verməli və hər birimiz səfərbər olmalıyıq. Bu gün hər bir azərbaycanlının məqsədi ölkəmizin gələcək inkişafına töhfə vermək olmalıdır.



***Nizami Suvarov,***
***Bradi kəndi***

# Şəhid ailələrinə və qazilərə diqqət və qayğı göstərilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimindəki çıxışı zamanı qeyd etdiyi kimi ölkəmizdə şəhid ailələrinə və qazilərə daim həssaslıqla yanaşılır, onların problemlərinin həll olunması diqqət mərkəzində saxlanılır. Cənab Prezidentin vurğuladığı kimi müharibədən cəmi üç ay yarım keçməsinə baxmayaraq, şəhid ailələri və müharibə əlilləri üçün yüksən səviyyədə yaşayış kompleksi inşa olunaraq təqdim edilməsi bunun bariz ifadəsidir. Dövlətin Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin yanında oması, onlara qayğı göstərməsi təqdirəlayiq haldır.

Prezident İlham Əliyevin və Birinci-vitse prezident Mehriban Əliyevanın şəhid ailələri və müharibə əlillərinə qayğısı, onlara sahib çıxması təkcə sosial siyasət deyil, həm də mənəvi məsələdir. Bu həm də 44 günlük Vətən müharibəsi zamanı cəmiyyətdə formalaşmış ruh yüksəkliyini, milli həmrəyliyi qoruyub saxlamaq baxımından da olduqca əhəmiyyətli məsələdir.

***Kamal Məmmədov,***
***Divaqaş kəndi***

1.qxd 02.04.2021 13:20 Page 3



## "Lerik" qəzetinin redaksiyasına

### Onlara borcluyam

Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ötən əsrin 70-80-ci illərindən azərbaycanlı gənclərin SSRİ-nin nüfuzlu ali məktəblərində oxumağa göndərilməsi ilə xalqımızın gələcəyi üçün vacib olan bir ənənənin əsası qoyulub. Ulu öndər ölkəmizin müstəqillik illərində də xaricdə təhsil alan gənclərə xüsusi diqqət göstərirdi. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2007-ci il tarixli 2090 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" ölkəmizin peşəkar mütəxəssis potensialının gücləndilməsi istiqamətində ən önəmli təşəbbüslərdən biridir.

Proqram gənc kadrların xaricdə təhsil almasına böyük vəsait yatırılması yönündə dünyada mövcud olan nadir layihələrdəndir. Neft kapitalının insan kapitalına çevrilməsi strategiyası Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Gəncliyin müasir tələblər səviyyəsində yetişməsinə ayrılan vəsait ölkənin, xalqın firavan gələcəyinin daha etibarlı təminatına zəmin yaradır.

Mən bir azərbaycanlı kimi fəxr edirəm ki, dünyada analoqu olmayan belə bir proqramın iştirakçısı olmuş, ondan faydalanmışam. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2012-ci ildə İstanbul Universitetinin Tibb fakültəsinə "İnfeksion xəstəliklər və kliniki mikrobiologiya" ixtisası üzrə qəbul olmuş, 2018-ci ildə təhsilimi başa vurub "Doktor - Uzman" ali tibb dərəcəsi almışam. İstanbul şəhərində fəaliyyət göstərən dünyaca məşhur "Memorial" xəstəxanasında müsabiqə əsasında işə qəbul olunmuşam. Hazırda tanınmış tibb ocağında çalışmaqla burada xalqımızı təmsil edirəm. Qardaş xarici ölkədə təhsil aldığım illərdə dövlətimizin qayğısını həmişə hiss etmişəm. Dövlət səviyyəsində mənə göstərilən yüksək diqqətə, maddi və mənəvi dəstəyə görə Azərbaycan gənci olaraq hörmətli cənab Prezident İlham Əliyevə sonsuz minnətdarlığımı bildirirəm.



### Taclı virus cövlan edir

Hazırda bəşəriyyəti bürüyən COVID-19 infeksiyası ilə dünyanın 230-dan artıq ölkəsində mübarizə aparılır. Virusa yoluxanların sayı gündən-günə artır. Pandemiya sürətlə yayılır.

Xatırladaq ki, koronavirus infeksiyası 2019-cu ilin dekabrında Çinin Uhan şəhərində yayılmağa başlayıb. Ümumdünya Səhiyyə Təşkilatı 2020-ci il fevralın 11-də infeksiyanın adını "COVID-19" qoyub və həmin il martın 11-də koronavirusu pandemiya elan edib. Koronavirus RNT genetik materialına malikdir, mikroskopik olmaqla ətrafındakı çıxıntılarla taca bənzədiyi üçün ona koronavirus, yəni "taclı virus" adı verilmişdir. Təkzəncirli RNT tipli məlumat kodu daşıyan koronavirusların hazırda 40 növü müəyyən edilmişdir. Bu 40 serotipdən insanlarda yalnız 7-si xəstəlik törədə bilir.

Pandemiya qitələr və materiklər səviyyəsində epidemiyanın yayılması deməkdir və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən elan olunur. Qeyd etmək lazımdır ki, indiyə qədər olan epidemiya və pandemiyaların sayı 60 olub. Bu saydan 30-u pandemiyadır ki, onun da 24-nün ölüm göstəricisi yüksək olmuşdur. Ümumilikdə, indiyə kimi 5 pandemiya zamanı infeksiya bütün dünya ölkələrini əhatə edib və müddəti 2 il çəkib.

Elmi araşdırmalarla təsdiq olunub ki, əhalinin yarıdan çoxu vaksinasiya olunarsa, təsirli nəticə əldə oluna bilər. Hazırda vaksinasiya prosesində dünyanın 70-dən çox ölkəsi Çinin "Sinovac" şirkətinin peyvəndinə üstünlük verir. COVID-19-a qarşı mübarizədə peyvəndləmə ilə paralel olaraq 3 "qızıl qayda" - maska, ara məsafəsi və dezinfeksiyaedici vasitələrdən istifadəyə dəqiq əməl etməklə effektli nəticə əldə etmək, həyatımızı normal axara qaytarmaq mümkündür.

Hazırda biz hamımız ötən il sentyabrın 27-də başlayan və möhtəşəm qələbəmizlə başa çatan Vətən müharibəsinin 44 layiqli şərəf gününün xoş təsiri altındayıq. Azərbaycan və Türkiyə həmişə olduğu kimi, bu tarixi sınaqdan da uğurla çıxdı. Müharibədə iki qardaş xalqın uzaq keçmişə malik, qoca tarixin yaddaşında əbədi həkk olunan dostluğu bir daha qalib gəldi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan və Türkiyəni **"Bir millət, iki dövlət"** adlandırmışdır. Böyük Mustafa Kamal Atatürk demişdir: **"Azərbaycanın sevinci bizim sevincimiz, Azərbaycanın kədəri bizim kədərimizdir".** Xalqımızın apardığı ədalətli müharibənin hər anı qardaş Türkiyə Respublikasında diqqətlə izlənilmiş, iqtidar və xalq tərəfindən daim dəstəklənmiş, rəşadətli Azərbaycan Ordusunun apardığı möhtəşəm döyüşün hər günü böyük coşqu ilə qarşılanmışdır. Bu dəstək yenilməz ordumuza əlavə güc verdi. Türkiyədə hamı etiraf edir ki, Azərbaycanda Vətən müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəlik məharəti və ölkəmizdə mövcud olan xalq-iqtidar birliyi tarixi zəfəri şərtləndirən əsas amillərdir.

Sonda qalib xalqımızı Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Hamıya sağlam həyat arzulayıram. Valideynlərimə, müəllimlərimə, həmkarlarıma, rayonumuzun bütün sakinlərinə "Bayramınız mübarək olsun!" deyirəm.

***Elnur Rufullayev,***
***"Doktor - Uzman",***
***Türkiyə Respublikası,***
***İstanbul şəhəri,***
***21 mart 2021-ci il.***

# Əbülfəzin qürbətdə Vətən arzusu

Gəzməyə qürbət ölkə, ölməyə Vətən yaxşı, - deyiblər ulular. Bu deyimin əsası budur ki, harada olsan da torpaq əvvəl-axır səni özünə çəkəcək, Vətən həsrətinə son qoyaraq doğulduğun yerə-yurda qovuşacaqsan. Ən böyük dahilər də bu istəkdən uzaq ola bilməmişlər, "Vətən, Vətən" deyə gözlərini əbədiyyətə yummuşlar. Uzaq Kanadada 5 elmi kəşfi ilə alimləri geridə qoyaraq məşhurlaşan dünya şöhrətli Lütfi Zadənin son vəsiyyəti buna misaldır. O Bakıda torpağa qovuşdu.



Əbülfəz Becan oğlu Həsənovu oxucuya daha yaxından tanıtmaq istərkən Vətən-qürbət dilemmasının doğurduğu təzad keçdi qəlbimizdən və yazıya belə bir başlıq seçdik.

Siz onu bəlkə də unutmamısınız. O, yeniyetməlik çağlarında, yəni məktəbin yuxarı siniflərində oxuyarkən qədim Pirasora (Pir-əsabə) kəndinin bərəkətli tarlalarında traktor səsi eşidən kimi qaçıb tamaşa edər, torpaq ətri ona halal zəhməti dərk etdirərdi. Yaxud dağların xan çobanları yaylaqlara muncuq tək səpələnmiş qoyun sürüləri "Nağdı yurd", "Qız yurdu" yaylaqlarına qalxanda eləməyib tənbəllik uzaq yol qət edər, alaçıqlara üz tutar, çobanlardan qeydlər götürərdi. Evə qayıdıb qələm-kağız götürər, "Bolluq uğrunda" (hazırkı "Lerik") qəzetinə məqalələr göndərərdi. Adını qəzetdə görəndə sonsuz fərəh keçirər, yeni mövzuların axtarışına çıxardı...

Nağıl dili yüyrək olar. Əbülfəz Azər Təhəməzov adına Pirasora kənd orta məktəbini uğurla bitirdi. ADU-da (indiki BDU) oxuyub ali təhsil aldı. Almaniyada hərbi xidmət dövrü də başa çatdı. O hiss etdi ki, həyatda əsl yerini tapmaq üçün ixtisasını dəyişməlidir. Bu istəklə də 1986-cı ildə Ufa şəhərindəki milik məktəbini seçdi. Orada oxuduğu illərdə yanılmadığını bir daha yəqin etdi. Zabit rütbəsi almaq bir yana, Əbülfəz həm də Komidə işlədiyi dövrdə zabit şərəfini qorudu, qayda-qanunların tələbləri ilə işlədi və yaşadı.

Haqqı-ədaləti həmişə uca tutdu, insan haqlarını qorudu, əyri yola düşənləri çəkindirdi, azərbaycanlı olduğunu əməlində, işində, milli kökə bağlılığında sübut etdi. Qarabağ həqiqətlərini müdafiə etdi, məkrli düşmənin iç üzünü açdı, bəşəriyyətə ləkə olduğunu göstərdi. Doğma el-obasını unutmadı, rütbəsi, vəzifəsi artdıqca barlı ağac kimi başını dik tutmadı, insanlıq duyğuları, bəşəri hisslərlə yaşadı.

Əbülfəz Həsənov Ukraynada F.E.Dzersinki adına Milis Akademiyasını bitirməklə öz peşə dərəcəsini, ixtisasını artırdı, idarə erməyə hazırlığını daha da təkmilləşdirdi. Təyinatla Ukraynanın Donetsk vilayətinə göndərildi, orada müxtəlif vəzifələrdə çalışdı. Yenakiyevna şəhərində polis rəisi kimi mühüm vəzifənin öhdəsindən bacarıqla gəldi. O, polis polkovniki rütbəsinə layiq görüldü. General olmağa tələsmirdi. Həm rəhbərliyin, həm də tabeliyində olanların arasında söz sahibi oldu, hörmət və nüfuz qazandı. Bir neçə nüfuzlu mükafata layiq görüldü. Dərslikləri çap olunmuşdu. Əbülfəzin qardaşı Əlican Həsənov deyir:

- Ondan yaxşı qardaş yox idi. O, hər bir işdə bizə nümunə idi. Əbülfəzin martın on birində qəflətən həlak olması xəbəri bizi sarsıtdı. Onun ömrü yarımçıq qaldı. General olmaq arzusuna çatmasa da, əsl insanlıq zirvəsinə qalxdı...

Yədulla Bağırov xalası oğlunun ölümündən çox təsirlənmişdir:

- Əbülfəzin həyatdan vaxtsız getməsi bizim üçün gözlənilməz oldu. Onun ömrü qısa olsa da xeyirxahlığında, ləyaqətində, fərqli insani keyfiyyətlərində övladlarının ömründə yaşayır Əbülfəz...

Möhübbət Güneyli (bibisi oğlu) deyir:

- Əbülfəzlə həm də dost idik. İdmançı cüssəsi, şax qaməti, qartal baxışları diqqəti çəkirdi. O, qürbətdə yaşasa da, ürəyi Azərbaycanda, Pirasora kəndində idi...

Deyirlər: İgid ölər, adı qalar, müxənnətin nəyi qalar? Bu doğrudan da belədir. Əbülfəz cismən aramızdan getsə də, əziz xatirəsi, yaxşı adı qalıb, ruhu yaşayır.

***İdris Mütəllimoğlu***

# Azərbaycan əsgəri cəsur, ordusu qüdrətlidir



Azərbaycan Ordusunun, əsgərinin qüdrətindən, şöhrətindən, onun uzaq keçmişindən bu yana şərəfli yol keçdiyindən qürrələnənlər, fərəh hissi keçirənlər çoxdur. Vətən müharibəsində, Qarabağ torpaqları uğrunda döyüşlərdə lerikli gənclər həmişə bu ənənəyə sadiq olmaqla, doğma rayonun bu sahədəki şərəfli yolunu ləyaqətlə davam etdiriblər.

- Bugünkü gəncliyimiz orta məktəb illərdindən şanlı Ordumuzun yaranma tarixini, onun qəhrəmanlıqlarla dolu səhifələrini öyrənməyə, qəhrəmanların yolu ilə getməyə xüsusi önəm verirlər. Məhz lerikli gənclər də babaların yolunu davam etdirirlər. Onların hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir. Gənclərdə vətənə, Orduya məhəbbət hissi daha da gücləndirilir, - deyə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Lerik rayon şöbəsinin rəisi Fəxrəddin Mirzəliyev məlumat verdi.

- Ordu torpaqlarımızı qoruyur, əhalini düşmənlərdən müdafiə edir, ölkəmizin ərazi bütövlüyünün keşiyində durur. Ordunun qüdrətlənməsinə, güclənməsinə, nizamintizamlı olmasına layiqli töhfə vermək hamının müqəddəs borcudur.

- Ordu Vətənin dayağıdır. Ordu sağlam və cəsur gənclərimizlə güclüdür. Sevinirik ki, gənclər Milli Ordu sıralarına xidmət etməyə daha həvəslə yollanırlar.

Doğrudan da Azərbaycan əsgərinin Qarabağın azadlığı uğrunda göstərdiyi cəsurluq, mərdlik və şücaət tarixə qızıl hərflərlə yazıldı. Onların göstərdiyi qəhrəmanlıqla dolu döyüş yolu, anda sədaqəti, ruhu fərəh doğurur.



Biz onların rəşadəti ilə torpaqlarımızı düşməndən azad etdik, biz itirilmiş ərazilərimizə sahib durduq. Eşq olsun Azərbaycan əsgərinə, onları doğan analara!

***Fədail Şükürov***



# Ramazan ayının başlayacağı tarix açıqlandı

Azərbaycanda Ramazan ayının başlanma tarixi açıqlanıb.

Qafqaz Müsəlmanları İdarəsindən verilən məlumata görə, Azərbaycanda Ramazan ayının ilk günü aprelin 13-nə düşəcək. Qeyd olunub ki, Azərbaycan Astrofizika Rəsədxanasının verdiyi məlumata görə, Ramazan ayının ilk günü aprelin 13-nə təsadüf edəcək. QMİ-dən əlavə olunub ki, bəzi ölkələrdə Ramazan ayı aprelin 14-də, çox ölkələrdə isə aprelin 13-də başlayacaq.

# Torpağa mehman oldu



### Alın yazısı və ya olacaqlar

Deyirlər, insan doğulanda, bu işıqlı dünyaya qədəm basanda onunla birlikdə onun alın yazısı da yazılır, tale yollarının xəritəsi çəkilir. Sadəcə olaraq insan cavan olanda bunu dərk etmir, zaman ötdükcə, idrakı kamilləşdikcə, həyatda bərkə-boşa düşdükcə, baş verənlər barədə düşündükcə dərk edir ki, tale yolları müəyyənləşib, olacaqlar baş verir. Hər nədirsə, nə alın yazısından, nə də olacaqlardan yan ötmək mümkün deyil... (bunu arzulamasa da)

Mirəziz kişinin ata-babası Lerikin Piyəkuçə kəndində yaşayıblar. Sonra onlar Dico kəndinə köçüblər. Burada dolanışığın çətin olduğunu görüb Mirəziz Lənkəranın Marso kəndinə (indiki Ürgə) ailəsi ilə bərabər köçüb, burada ev-eşik sahibi olub. O, ruzi qazanıb, halal çörək yiyəsi olub. Ailəsində xanımı mərhum Hacıbəyimlə beş qız, iki oğul böyüdüblər. Onların sağ-salamat böyüməsi, ev-eşik sahibi olması üçün valideyn borcunu yerinə yetiriblər. Övladları böyüdükcə, ailə sahibi olduqca fərəhləniblər, seviniblər ki, övladları həmişə baş ucaldan olublar, utancgətirici bir iş görməyiblər...

### Mən zabit olacam

Ürgə kənd tam orta məktəbini uğurla bitirəndə çoxlu dostu vardı Mehmanın. Son zəngdə ibtidai hərbi hazırlıq müəllimi müdavimlərin arzularını soruşurdu. Növbə Mehmana çatdı. Müəllim sual dolu nəzərləri ilə dolu bədənli, şux duruşlu, möhkəm idmançı görkəmli, nikbin əhval-ruhiyyəli Mehmanı süzdü. Mehman bunu hiss edərək dedi:

-Müəllim, bilirəm, hansı sənət sahibi olacağımı soruşacaqsınız. Mən artıq qət etmişəm: ali hərbi təhsil almaq arzumdur. Vətənimizin bir qismi düşmən təcavüzü nəticəsində işğal edilib. İndi bilikli, bacarıqlı əsgər və zabitlərə ehtiyac çoxdur. Vətən torpağı bizdən kömək gözləyir...

Qarabağa əl uzatsaq çatar. Lakin məkrli düşmən buna imkan vermir. Vətəndə vətənsiz yaşamaq bizə utanc gətirir. Vətən torpaqlarına həsrət qalmışıq. Düşməndən şəhər və qəsəbələrimizi, kəndlərimizi, ulu yurdun dağını, daşını, gülünü, çiçəyini biz almasaq, əsir məmləkəti yağıdan biz xilas etməsək bəs kim edəcək?

- Sən haqlısan, Mehman. Mən də sənin yerində olsaydım belə deyərdim, Vətəni dar ayaqda saxlamaq olmaz...

Mehmanın bu qısa, lakin alovlu nitqinə təkcə müəllim deyil, sinif yoldaşları da diqqətlə qulaq asdılar. Sanki, onların demək istədiyini Mehman dedi. Dedi və sözünə də əməl etdi...

Mehman Mirəziz oğlu Şirvanov 1998-ci ildə Bakıdakı Ali Hərbi Birləşmiş Komandirləri məktəbinə bu amalla daxil oldu. Oxuduğu illərdə onun bir çox xarakteri üzə çıxdı. Məktəb həyatı onun üçün bir sınaq dövrü oldu. O, hərb elminə sonsuz həvəsi, biliyi, nizam-intizamı, vətənsevərliliyi , torpaq və yurd sevgisi, sabaha inamı ilə hamıya örnək oldu. Vətən torpağını canından artıq sevmək, qorumaq, onu düşməndən azad etmək duyğusu ömrünün ən uca məqamı idi...

### Mehmanın on iki yaşı vardı...

Qarabağ söhbətləri, işğal dövrü başlayanda Mehman Şirvanovun cəmi 12 yaşı vardı. İndi isə ən uca şəhidlik məqamına çatanda 41 yaş içərisində idi. İlk günlərdə Qarabağ söz-söhbəti yarandı. Sonra savaş oldu, müharibə alovlandı, qan-qada, ölüm oldu. Sonra şəhidlik oldu, didərginlik həyatı başlandı, məcburi köçkünlərin məşəqqətli köçkünlük dövrü ürəklərdə qövr elədi...

Mehman tağım komandiri kimi Milli Orduda xidmət etməyə başladı. Sonra Naxçıvandakı "N" saylı hərbi hissədə xidmətini davam etdirdi. 2010-cu ildə Arzu xanımla ailə həyatı qurdu. Özünü xoşbəxt hiss etsə də, Qarabağ nisgili ona ürəkdən sevinməyə imkan vermirdi. Nədən söhbət düşsə də Qarabağ hadisələri, işğal edilmiş məmləkət üzərində dayanırdı. Məğlubiyyətin səbəbləri onu uzun-uzadı düşündürürdü, ancaq heç cür təsəlli tapmırdı...

Mehman Şirvanov 2005-ci ildən başlayaraq Ruminiyada və qardaş Türkiyədə ixtisasını artırdı və peşəkarlığını möhkəmləndirdi. 2016-cı ildə aprel döyüşlərinə qatıldı, torpaqlarımızın azad edilməsində misilsiz şücaət göstərdi. Biz daha yəqin etdi ki, Qarabağa dair beynəlxalq miqyasda qəbul edilmiş qətnamələr və qərarlar öz əhəmiyyətini itirib. Qarabağın xilası öz əlimizdədir.

### Ancaq irəli!

Mehman Şirvanovun xidmət etdiyi hərbi hissələr müxtəlif coğrafi ərazilərdə yerləşsə də, o, mühitə tez alışır, tabeliyindəki əsgər və zabitlərin əhval-rihiyyəsinə bələd olduğu qədər, onlar da komandirin hansı aura ilə nəfəs aldığını bilirdilər. Polad iradəli, dönməz xarakterli zabit peşəkarlığı, məharəti, həmişə hərbi biliyini, döyüş qabiliyyətini, Vətənə sədaqətlə xidmət etməsi ilə seçilir və bunu əsgərin müqəddəs vəzifəsi hesab edirdi. O özü isə bu vəzifəni zabit şərəfi ilə yerinə yetirirdi. Qarabağ torpağının yağı tapdağı altında qalması, məkrli və hiyləgər düşmənin atəşkəsi tez-tez pozması hərbi hissələrimizi, əsgərlərimizi sərhədyanı bölgələrdə yaşayan dinc sakinləri hədəfə alması, qətllər törətməsi onu rahat buraxmırdı, onun əsəblərini tarıma çəkir, düşmənə nifrəti artırdı. Lakin o cəsur əsgərlərimizin hünərinə və qeyrətinə, cəsarətinə inanırdı. İnanırdı ki, bir vaxt gələcək düşmən etdiklərinə görə cavab verməli olacaq... O zaman Mehman bir komandir kimi tabeçiliyindəki əsgərlərə əmr edəcək:

- Düşmənin hədəflərinə doğru atəş! Ancaq irəli!

### Bəli, o gün gəlib çatdı

Azərbaycan - Ermənistan dövlət sərhədində 2020-ci il iyul ayının 12-də Tovuz rayonu istiqamətində yaşayış məntəqələri artilleriya atəşinə tutuldu. Nəticədə azərbaycanlı hərbçilər və mülki şəxslər həlak oldu və yaralandı. Bütün bunlar beynəlxalq humanitar hüququn ciddi pozulması demək idi və hərbi cinayət kimi qiymətləndirilir.

Ermənistanın işğalçı ordusu növbəti dəfə qəflətən xaincəsinə 27 sentyabr 2020-ci il tarixdə sübh tezdən dinc yaşayış məntəqələrimizə hücum etdi. Bu, Ermənistan rəhbərliyinin faşist ideologiyası ilə silahlanaraq azərbaycanlılara qarşı nifrət zəminində qırğınlar törətmək, yeni ərazilər işğal etmək planı ilə hərəkət etdiyini göstərir. Lakin Azərbaycan Ordusu işğal altındakı kəndlərimizi, strateji yüksəklikləri işğaldan azad edərək irəliləyir, düşmən qüvvələrinə sarsıdıcı zərbələr endirir.

Ali Baş Komandan, Ordu, Dövlət, Xalq birliyi bizi qələbəyə aparan zaman tabor komandiri polkovnik-leytenant Mehman Şirvanov sakit qala bilərdimi?! Əsla yox! Onun rəhbərlik etdiyi taborun döyüşçüləri düşmənə qarşı vuruşmada əsl qəhrəmanlıq göstərirdi. Qəhrəman əsgər və zabitlər Azadlıq gününü çoxdan gözləyirdilər. Mehmanın və tabeliyindəki cəsur döyüşçülər hünər, mərdlik, qeyrət və rəşadət nümunəsi göstərir, düşmənə layiq olduqları zərbəni endirirdilər. O, Murovda strateji yüksəkliklərin alınması zamanı döyüşlərdə qəhrəmanlıqla şəhid oldu. Şəhid oldu ki, Vətən azad olsun, azad yaşasın...

ATƏT-in, BMT-nin, Minsk qrupunun 27 il ərzində etmədiyini Azərbaycan əsgəri bir neçə saatda etdi. Biz nəhayət başa düşdük ki, qələbə qazanmaq şansı öz əlimizdədir, növbə bizimdir.

### O tək məzar nə deyir?

...Mehman avqust ayının 27-də Lənkərana - atasıyla, bacı-qardaşları, ailəsiylə, qızı Nurayla görüşməyə gəlmişdi. Sanki ürəyinə dammışdı. Bu son vida görüşü oldu. Mehman qohum-əqrəba ilə də görüşüb hal-əhval tutdu. Əmisi, təcrübəli hüquqşünas Əmrulla Şirvanovdan Mehman barədə qiymətli sözlər öyrəndik. Atası Mirəziz kişi ilə Ürgədəki qəbiristanlıqda uyuyan anasının və yaxınlarının məzarlarını ziyarət etdi. Birdən o, atası Mirəzizdən soruşdu:

- Ata, baxıram dünyasını dəyişənlər bir yerdə torpağa basdırılıb. Bəs şəhidlər olsa harada dəfn olunar?

- Oğul, nə deyim, belədir də.

-Ata, gərək şəhidlər ayrıca bir yerdə, sıra ilə dəfn olunsun. Axı, onlar təkcə bir ailəyə yox, xalqa məxsusdur. Vətən uğrunda şəhid olanların ehtiramını saxlamaq hər kəsin borcudur.

Sonra Mehman yanındakılara məscidin həyətindəki yeri göstərərək dedi:

- Bax, bura şəhidlər üçün yaxşı yerdir. Adamlar bilikdə şəhid məzarını ziyarət edərlər. Həm də bu savab iş olar...

Söhbət beləcə bitdi.

İndi Mehmanın məzarı onun dediyi yerdə, məscidin həyətindədir. Burada torpağa Mehman oldu... Məzarını gül çələngləri, qərənfillər bəzədi...

### Bu son söz deyil

Bəli, Azərbaycanın əsgəri bu gün babalarımızın şanlı döyüş əzmini artırır, qələbə ruhunu təzələyir.

Damarlarında qan əvəzinə qeyrət, mərdlik və cəsarət axan əsgərlərimiz düşmənin başına şimşək tək çaxır, başına od ələyir, onu qaçmağa məcbur edir. Biz bu əsgərlərin cərgəsində xalqımızın şəhid oğlu Mehman Şirvanovu görürük. Mehman 41 yaşında şəhidlik zirvəsinə ucaldı. Hayıf ki, ömrü yarıda qaldı. Lakin Mehmanın məzarı üzərindəki üçrəngli bayrağınız qələbənin işığında əzəmətlə dalğalanır...

**P.S. Mehman Şirvanov azad olunmuş Qarabağı görməsə də o, bu məmləkətin azadlığı, Azərbaycanın bötüvlüyü uğrunda canından keçdi. Vətən müharibəsində əsgərlərlə bərabər, zabitlər də döyüşürdü. Mehmanın qəhrəmanlığı, rəşadəti, cəsurluğu, peşəkarlığı ona solmaz şöhrət gətirdi. O, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə "Qarabağ uğrunda" ordeni, "Vətən müharibəsi" medalı ilə təltif edildi. Müharibədən əvvəl Mehman 4 medalla təltif olunmuşdu. Halal olsun.**

**P.P.S. Eşitdik ki, Ürgə kəndinin adı Mehman Şirvanovun şərəfinə Mehmanlı adlandırlacaq. Nə xoş xəbərdir.**

***İdris Şükürlü,***
***Azərbaycanın Əməkdar jurnalisti***



*İltimas Səmimi*

## BU ŞANLI ZƏFƏRİ YAŞATDIZ BİZƏ

***İkinci Qarabağ savaşında - Cəbrayıl uğrunda qəhrəman casına şəhid olmuş, "Vətən müharibəsi Qəhrəmanı" mayor Amid Rəbbil oğlu Heydərovun əziz xatirəsinə.***

Cəbrayıl torpağı - Nuzigar kəndi,
Torpağı qum kimi göyə sovrulur.
Topların səsindən dağlar titrəyir,
Atəşdən, alovdan daşlar ovulur.

Mərmilər od saçır, tanklar yeriyir,
Yayılır havaya toz duman kimi.
Bayrağa and içən igid oğullar,
Yüyürür irəli qəhrəman kimi.

Cəbrayıl qadalı döyüş meydanı,
Atılan hər mərmi düşməni biçir.
Tanklar yeridikcə torpaq diksinir,
Hər döyüş heyəti sınaqdan keçir.

Toplara, tanklara həmlələr edən,
Düşmən istehkamı yarıb dağıdan,
Qəhrəman Amid də bir aslan kimi,
Ürəyi vətənlə döyünüb hər an.

Hər uğur bir sevinc, ruhlanır ürək,
Doğmadı igidə Vətən torpağı.
Bu haqq savaşında hünər göstərir,
Hər yeni həmlədən qovulur yağı.

Tankçı Amidin də bu sücaəti,
Şimşək tək çaxmağı istəkdən gəlir.
Ona müqəddəsdir Həzinin yolu,
Ən gözəl arzular ürəkdən gəlir.

Aprel döyüşündən uzanan bu yol,
Qəhrəman zabitin həyat yoludur.
Hər yeni uğurdan ilhamlanaraq,
Qələbə millətin nicat yoludur.



Cəbrayıl torpağı, Nuzigar kəndi,
Torpağı qum kimi göyə sovrulur.
Topların səsindən dağlar titrəyir,
Atəşdən, alovdan daşlar ovulur.

Bu da döyüşçünün qəhrəmanlığı,
Bu da bir əbədi Vətən sevgisi.
Anılar hər zaman, anılar hər an,
Gələn nəsillər də unutmaz sizi.

Ey bizə qələbə yaşadan ərlər,
And olsun, müqəddəs Vətənimizə.
Millətim heç zaman unudan deyil,
Silindi qəlblərdən bu acı nisgil,
Vətəndən ötəri canından keçib
Bu şanlı Zəfəri yaşatdız bizə...

## ONU ƏR BÖYÜTDÜ VƏTƏN TORPAĞI

***2-ci Qarabağ savaşında - Cəbrayıl və Füzuli uğrunda qəhrəmancasına şəhid olmuş,"Vətən uğurunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunan mayor Ramil Mərdan oğlu Ağayevin əziz xatirəsinə***

Qəhrəman hücumda yağı basılır,
Bu da qan-qadalı savaş meydanı.
Coşur ürəyində intiqam hissi, -
Düşmən, kimliyimi gücümdən tanı.

Tarixə yazılan bu qanlı döyüş,
Bu həmlə, bu hücum, bu toz, bu duman.
Silaha sarılan tankçı Ramili,
Aparır irəli dayanmır bir an.

İllərdi bu günü gözləyib, demə,
And içib ürəkdən doğma Vətənə.
Düşmənin tankları qənimət kimi,
Ona döyüşməyə ruh verib yenə.

Cəbrayıl torpağın hər dağı, daşı,
Tanıyır Vətənin bu mərd oğlunu.
Fəqət xəyalında zəfər sevinci,
Gələn nəsillər də unutmaz onu.



Mərmilər od tökür, düşmən qorxuda,
Uğurdan yaranır bu güc, bu hünər.
Döyünən ürəyim doğma Qarabağ,
Şanlı qələbəyə ruhum sevinər.

Ruhunu sarsıltmaz bu qanlı savaş,
Bu Vətən torpağı onun and yeri,
İgid dağlar oğlu, dağlar kimidir.
Çağlayan ümmandır onun hünəri.

Tarix hünərindən danışar hələ,
Fəqət unutmazdıq biz Qarabağı.
Hər an xatırlayar tankçı Ramili,
Onu ər böyüdən Vətən torpağı...

Tarixə yazılan bu qanlı döyüş,
Bu həmlə, bu hücum, bu toz, bu duman.
Silaha sarılan tankçı Ramili,
Aparır irəli dayanmır bir an.

***11.01.2021***

# Şənliksiz qaldıq

Şənlik İdris oğlu Əlizadə 7 yanvar 1987-ci ildə Lənkəran şəhərində anadan olmuşdur. Uşaq yaşlarından musiqiyə həvəsi var idi, 4-5 yaşlarında müxtəlif qutuları yığıb, onlardan qoşanağara forması düzəldib çalardı. Yaşının azlığına baxmayaraq həyətdəki bütün uşaqlar onun ətrafına toplaşıb çaldığına qulaq asardılar. 1993-cü ildə Lənkəran şəhər 10 saylı orta məktəbin 1-ci sinfinə daxil olub, ikinci sinifdə oxuyarkən eyni zamanda C.Cabbarlı adına uşaq musiqi məktəbinin tar bölməsinə daxil olub. 2002-ci ildə orta məktəbin IX sinfini bitirərək Lənkəran şəhər Humanitar Kollecinə (xalq çalğı alətləri ixtisası üzrə) daxil olub. 2006-cı ildə kolleci bitirmiş, 2 il E.Rufullayev adına Lerik şəhər Musiqi Məktəbində tar



müəllimi kimi fəaliyyət göstərmişdir.

Orta məktəbdə oxuduğu sinif yoldaşlarının əksəriyyəti Lənkəran Dövlət Universitetinin tələbələri idi. Həmin tələbələrin dəvəti ilə 2003-cü ildə LDU-da keçirilən "Məzun günü"ndə tarla ifadə etdiyi musiqilər o vaxtkı universitet rəhbərliyi tərəfindən bəyənildiyi üçün LDU-ya işləməyə dəvət edilmişdir. O, 2008-2010-ci illərdə LDU-da keçirilən tədbirlərdə bədii rəhbər kimi fəaliyyət göstərmişdir.

Şənlik simli musiqi alətlərinin əksəriyyətində çalırdı. Yaxşı dizaynerliyi-tərtibatçılığı var idi. O, 2010-cu ildən ömrünün sonuna kimi Lənkəran Regional Mədəniyyət İdarəsi nəzdində "Həqiqət Rzayeva adına Yaradıcılıq evi"ndə bədii rəhbər vəzifəsində çalışmışdır. Rayon tədbirlərində, el şənliklərində yaxından iştirak edirdi. Onun bu qədər dost -tanışının olduğunu heç vaxt təsəvvür eləmirdik.

Cəmi 34 il yaşadı.Son illərdə ciyərlərində əmələ gələn bədxassəli şiş xəstəliyi 2021-ci ilin mart ayının 6-da bizi "Şənlik"siz qoydu...

Heç bilmədim nədən oldu,
Hardan gəldi mənə zaval,
Fələk mənə niyə qıydı,
Cavan ömrüm hədər oldu.

# Qəqəni ləqəbli İlqar Abdullayevin döyüş yolu

*(Əvvəli ötən sayımızda)*

1993-cü il idi. İyun hadisələrinin qarşısının alınmasında, Gəncə şəhərində qiyamçıların zərərsizləşdirilməsində iştirak etdi. Nəhayət, 1994-cü ilin aprel ayının 24-də Tərtər yüksəklikləri (Nəmirli, Seyidsulan, Talış, Soltanlı uğrunda düşmənlə qeyri-bərabər döyüşdə (rus nayomniqləri və Jannanın başçılıq etdiyi snayper dəstəsi) çox itkilər verərək qeyri-çəkilməyə məcbur olduq. (Silah-sursat vaxtında bizə gəlmədiyinə görə). Həm rabitəçi vəzfəsini, həm də qranatamyotla (qumbraatan) döyüşmək mənim üçün həm çətin, həm də şərəfli idi. O vaxt rabitəçilər Qubanın Xınalıq kəni ki var, ancaq o kənd camaatı o dildə danışırlar. Qeyri-adi bir dildir. Erməni rabitəçiləri o dili qətiyyən bilmirlər. Mən sərrast Xınalıq dilində danışdığım üçün məni batalyon komandiri mayor Gəray Bağırovun svyazisti təyin edilmişdim. Aprelin 25-də günorta vaxtı düşmənin ağır tankları (branjiletli) üstümüzə yetiməyə başladı. 6 tankımızı vurdular. Qumbaraatanları və pulemyotçuları vurub yaraladılar. Hamı geri çəkilmişdi, mən və bölük komandirim Fikrət İsayev mühasirədə qalmışdıq. Döyüşçü yoldaşlarımız çətin də olsa, bizi qorumaqla mühasirədən çıxdıq. Birdən qəfildən ayağımın yuxarı hissəsindən yandırıcı bir istilik hiss etdim. Snayperdən atdıqları güllə ayağımın yuxarı ətraf nahiyyəsini (bud) güllə deşib keçmişdi. Tez qışqırıb ayağa durub o vəziyyətlə bir mərmi ilə qumbaratanla düşmən tərəfə atdım və başladım onları söyməyə. Bu vaxt döyüşçü yoldaşlarım qışqırırdılar, Qəqəni yaralandı. Bu səs yenidən təkrarlandı.

Kimsə dedi: - Ona kömək edin, döyüş meydanından çıxarın. Çox keçməmişdi ki, BMP2-nin atdığı mərminin təsirindən qəlpələr bölük komandirini Fikrətin gözlərini çıxartmışdı, bədənin müxtəlif nahiyələrinə qəlpə dəymişdi. Batalyonda 10 nəfər sağ qalmışdı. Bir çox igid əsgər və zabitlər şəhid oldular.

İlqar üç aydan sonra sağalıb iyul ayının əvvəlində hərbi hissəyə qayıtdı. Sağ qalan döyüşçü dostları onu görüb sevindilər, onu bağrına basdılar. Ötən acılı günləri xatırladılar.

1994-cü il may ayının 12-də atəşkəs rejimi bərpa edildi. 1994-cü ilin oktyabrında dövlət çevrilişinə cəhdin qarşısının alınmasında İlqar Abdullayev fəal iştirak etdi.

1994-cü il 15-17 mart hadisələrində dövlət çevrilişinin qarşısının alınmasında böyük fədakarlıq göstərib. Burada itkilər də az olmadı. Bölük komandiri Samir Xasıyev, çavuş dostu Nazim Babayev və bir çox hərbi qulluqçular şəhid oldular. Onlar ölümündən sonra Azərbayanın Milli Qəhrəmanı adına layiq görüldülər. İlyar baş çavuş olaraq yenə hərbi qulluğuna davam etdi. 1995-ci ildə məntəqə rəisi vəzifəsinə təyin edildi. Məntəqə 12 nəfər əsgər və 12 təlim itlərdən ibarət idi. 1997-ci il oktyabr ayının 9-da Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Heydər Əliyevin sərəncamı ilə silahlı qüvvələrin sıralarından ehtiyata tərxis olundu. Ömrümü hərbiyə həsr etmək onun üçün böyük şərəfdir.



İndi o fəxr edir ki, övladı Elnur Bəşirzadə Azərbaycan ordusunda gizir rütbəsində Vətənimiz Azərbaycan xalqına xidmət edir. Kiçik qardaşı Nazim Abdullayev də Azərbaycan silahlı qüvvələrində zabit kimi xidmət edir.

Qəqəni ləqəbli İlqar Abdullayev deyir:

- Mən Ordumuzla fəxr edirəm. 2016-cı ilin aprel ayında dörd günlük müharibədə Lələtəpə, Cocuq Mərcanlı, Talış və s. yüksəklikləri azad edənlərin arasında olmasam da özümü həmişə sıradan hesab edirəm. Çox sevinirəm ki, indi məni orduda oğlum, gizir Elnur Bəşirzadə əvəz edir. O, Cəbrayıl və Tərtərin azad edilməsində iştirak edib. Qardaşım oğlu Emil də hərbiyə könüllü gedib. Əsgər Hüseynov Füzuli, Hadrut, Qubadlı və Daşaltı döyüşlərinin səcur iştirakçısıdır. O, bir qolunu cəbhədə itirib. Dayım nəvəsi Cavanşir Həmidov ikinci Vətən müharibəsində şəhid olub. Kəndimizdən altı şəhidin - Elşən Səfərovun, Mübariz Ziyadovun, Zamir Tağıyevin, Cavad Hüseynovun, Famil Canıyevin döyüş qəhrəmanlığı ilə hamı fəxr edir.

İlqar İkinci Vətən müharibəsi barədə fəxarət hissi ilə danışır. Çünki əsgərlərimiz 44 günlük müharibədə nəyə qadir olduğunu dünyaya göstərdi, düşməni darmadağın etdi. Şəhidlərimizin qanı yerdə qalmadı.

Ali Baş Komandan İlham Əliyevi sərkərdəlik məharəti, qətiyyəti, cəsarəti, dimlomatik məharəti üzə çıxdı, Azərbaycanın Qarabağda işğal olunmuş torpaqları azad edildi. Əgər lazım olsa istənilən an keçmiş cəbhəsi kimi Vətənin əsgəri olmağa hazır olduğunu deyir İlqar.

İlqar Abdullayevin 46 yaşı noyabr ayının 12-də tamam oldu. Yəni Bayraq günündə. O bayraq ki, indi Füzulidə, Zəngilanda, Qubalıda, Ağdamda, Kəlbəcər və Laçında, Şuşada dalğalanır.

Sanki Vətən fədailərinə əl edərək minnətdarlıq edir, ən uca yerlərdə məskən tapdığı üçün sevinir...

***İdris Şükürlü***



*Muradəli Sönməz, şair*

## Vətən yaz deyir

***44 günlük Vətən müharibəsindən sonra yeniləşən həyatın dirçəlməsinə həsr edirəm.***

Vətən ağuşuna çağırır məni,
Xəyalım dolaşır bütün aləmi,
Səsləyir, a dostum, götür qələmi,
Ağ kağız üstündə dastan yaz deyir.

Yox oldu yurdumdan kədər, qüssə, qəm,
Açılıb qarşımda yeni bir aləm,
Qalıb, şad həyata qoymuşuq qədəm,
Vətən şad həyatdan yaz, yarat deyir.

İşğaldan olunub torpaqlar azad,
Ölkəmdə yaşayış dəyişib qat-qat.
Xalqımın üzünə gülürsən, həyat,
Vətən şən həyatdan yaz, yarat deyir.

Kökündən dəyişib, ölkəmdə həyat,
Doğma Qarabağda canlanır həyat,
Yaşayır insanlar qayğısız, rahat,
Dəyişən həyatdan Vətən yaz deyir.

Dağılmış binalar yenə qurulur,
Gözəl Şuşamızda insanlar gülür,
Mənfur düşmənlərin bağrı sökülür,
Uğurlu növraqdan Vətən yaz deyir.

Faşistin yox oldu arzusu, kini,
Torpaqlar azaddır sevinir hamı,
Vətənim qeyd edir Zəfər bayramı,
Uğurdan, Zəfərdən Vətən yaz deyir.

Sevincdən don geyib bəzənib hər yan,
Güclənir yurdumuz daim anbaan,
Eylədi kimliyin dünyaya bəyan,
Vətən şad ölkədən yaz, yarat deyir.

Vətən abadlaşır, yurdum dəyişir,
Şad həyat ölkəmdə bulaq tək daşır.
Sevincdən dil açıb daş da danışır,
Bu yeni həyatdan Vətən yaz deyir.

Azad nəfəs alır Şuşamız bu gün,
Vətənim güclənir daim günbəgün.
Ölkəmiz örnəkdir dünyaya bu gün,
Azad, şən həyatdan Vətən yaz deyir.

# "Azərbaycan övladı" qəzeti şəhidlərdən yazıb

Surxay Şirvanlının redaktor olduğu "Azərbaycan övladı" qəzetinin 11 mart tarixli sayı lerikli oxucular tərəfindən maraqla qarşılanmışdır. Qəzet lerikli şəhidlərə, qazilərə 4 səhifə yazı həsr etmişdir. "Əsgər ürəyi" adlı oçerk Lüləkəran kəndində yaşayan Qarabağ müharibəsinin iştirakçısı Arzuman Əsgərovun döyüş yolunu, düşüncələrini oxucunun diqqətinə çatdırır.

Qəzetin 8-ci və 9-cu səhifələrində Surxay Şirvanlı Vətən müharibəsinin qəhrəmanı Amil Heydərovun fədakarlığına, şəhid zabit Ramal Ağayevə, Elnur Əsədullayevə, Amid Ağacəfərliyə, Elgün və Altay Tahir oğlu qardaşlarına həsr etdiyi yazını həyəcansız oxumaq mümkün deyil. Lerik şəhərinin İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsi Ramal Məstiyev məqalədə Lerik RİH tərəfindən şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına göstərilən diqqət və qayğıdan, maddi və mənəvi dəstəkdən söz açıb.

Ümumilikdə qəzetin lerikli şəhidlər barədə çap etdiyi yazılar təqdirəlayiqdir.

***"Lerik"***

# "Gözəlik salonları və restoranlar yenidən bağlanıla bilər"



Azərbaycanda yoluxanların və ölənlərin sayı artan dinamika ilə davam edir. Elə bu səbəbdən də yenidən qapadılmaların olacağı ilə bağlı fikirlər səsləndirilir. Hətta aprelin 5-dən sonra restoranların, gözəlik salonlarının və geyim mağazalarının yenidən bağlanacağı da iddia edilir. Bəs bu iddialar nə dərəcədə həqiqəti əks etdirir?

Bununla bağlı Sonxeber.az-a danışan dosent Ədalət Rüstəm bildirib ki, Azərbaycanda son dövrlərin yoluxanların və ölənlərin sayının kəskin narahatedici məqamdır:

"Reanimasiyalarda ağır xəstələrin sayı durmadan artmaqdadır. Əgər sərt tədbirlər görülməsə yoluxanların və ölənlərin sayı artma dinamikası davam edəcək. Bilirsiniz ki, artıq ölkəmizdə Britaniya ştammına yoluxanlar da var. Koronavirusun bu növü daha tez yoluxuculuq qabiliyyətinə malikdir.

Qaldı ki, karantin rejimi ilə bağlı qərar qəbul etmək Operativ Qərargahın səlahiyyətindədir. Operativ Qərargah epidemioloji vəziyyəti analiz edərək karantin rejimi ilə bağlı düzgün qərarı qəbul edəcək.

Düşünürəm ki, birinci və ikinci dalğada olduğu kimi yoluxma sayını artmasına səbəb olacaq müəssisələr yenidən qapadıla bilər. Hətta "evdə qal" karantini və "sms icazə" sisteminin geri qayıtması qaçılmaz olacaq. Aprelin 5-nə kimi yoluxma dinamikası bu cür artma dinamikası ilə davam edərsə, gözəlik salonları, restoranlar və xırda ticarət mərkəzləri yenidən bağlanıla bilər".

*Redaktordan*

# Düşünün və nəticə çıxarın...

***Televiziya kanalları, sosial şəbəkə gündəlik məişətimizə sorğu-sualsız daxil olub. Bəzən təəssüf hissi məni bürüyür. İkinci Vətən müharibəsində Azərbaycanın əsgər və zabitləri parlaq Zəfər qələbəsi qazandılar, düşmənin nəfəsini kəsib Qarabağı azad etdilər, yeni tarixə imza atdılar. Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, sərkərdəlik məharəti, qələbəyə inamı, Dövlət-Xalq-Ordu birliyi, gənc vətənpərvərlərin yurdun müdafiəsinə qalxması bu dəfə qələbəni təmin etdi. Ordumuzun peşəkarlığı, qətiyyəti düşməni lərzəyə saldı. XXI əsr müharibəsi Azərbaycanın gücünü, əzəmətini göstərdi, dünyanın bəzi nəhəng dövlətləri isə bundan üşüdü...***

Prezident müharibənin davam etdiyi günlərdə bir neçə ölkənin televiziya şirkətlərinə və kampaniyalarına müsahibə verərək Azərbaycan həqiqətlərini dünyaya yaydı. Ölkə başçısı BMT-ni, ATƏT-i Minsk qrupunu 27 il ərzində fəaliyyətsizliyini qınadı, Ermənistanın, qondarma qurumun riyakarlığını, həyasızlığını, yalanını, hiyləsini, onların informasiya mənbələrinin püskürdüyü yalanları darmadağın etdi və onlara tarixi bir dərs keçdi.

Qaynaqlar göstərir ki, Səfəviləri qələbədən-qələbəyə aparan əsas səbəb orduda müridlərin və döyüşçülərin qızılbaşların qüdrətli sərkərdəsi Şah İsmayıla göstərdikləri hədsiz inam, onu "zamanın sahibi" hesab etməsi, ikincisi də Qızılbaş ordusunu yaradan əsgərlərin böyük ruh yüksəkliyi, cəsarəti və mətinliyi idi. Azərbaycan Respublikasının Ali Baş Komandanı İlham Əliyev ordumuzda belə bir inam və ruh yüksəkliyi yaratmışdı. Əsgər və zabitlərimiz, komandirlər ölkə başçısını hər zaman özləri ilə birgə görürdülər. Ordu XXI əsrin ən müasir müharibəsinə tam hazırlanmışdı. Birinci Qarabağ müharibəsində İlham Əliyev kimi Komandanımız, mobil və peşəkar, hazırlıqlı, güclü ordumuz, Dövlət-Xalq-Ordu birliyi, Polad Həşimov, Hikmət Mirzəyev kimi generallarımız, Ramil Səfərov, Mübariz İbrahimov kimi əsgərlərimiz yox idi, Qarabağ yiyəsiz qalmışdı. Şah İsmayıldan başqa heç bir dövlət başçısı, sərkərdə işğal olunmuş torpaqlarımızı azad etməmişdi: belə bir tarixi vəzifəni icra etmək İlham Əliyevə nəsib oldu...

Eşq olsun!

Vətən müharibəsində şəhid verdik, əsgərlərimiz qazi oldular. Onların hər birinin hünəri qəhrəmanlığa layiqdir. Onlar qələbə sevincini bizə dadızdırdılar, "imzalar içində imzası var millətin" deyimini reallığa çevirdilər.

Bəs narahatçılıq doğuran nədir?

Əsgər şərəfinin, şəhidliyin, qəhrəmanlığın yeri həmişə uca zirvələrdədir. Bu şərəfə, ləyaqətə, bu ada-sana kölgə salan telekanal və sosial şəbəkələrə iradımız var. Siz Azərbaycanın görən gözü olmalısınız. Əsgər paltarı geyən müğənni, artist, aparıcı, özünü gözə soxan birisi görüntü yaradarkən qanı torpağa çilənmmiş şəhidləri, azadlıq fədailərini, onların ailəsini, övladını, yaxınlarını əsla unutmayıb onlara ehtiramla yanaşın. Bu ada layiq iş tutun. Əsgər paltarı geyinmək yalnız düşmənin üzərinə şığıyan fədailərə yaraşır, hər adama yox. O paltarı bir günlük yox, döyüş meydanlarında geyinmək, düşməni pərişan etmək üçündür. Hər kəsin öz işi, sənəti, ad-sanı, həyat tərzi, tutduğu mövqeyi olmalıdır.

# Oxuculara!

***Rayonumuzun yeganə mətbu orqanı olan***

## *"Lerik"*

***qəzetinə 2021-ci ilin birinci yarım ili üçün abunə yazılışı davam edir. Qəzetə Lerik Rayon Poçt filialında, Mətbuat Yayımı şöbəsində abunə yazıla bilərsiniz. Qəzetin yarım illik abunə qiyməti 10 manatdır.***

**"Lerik" qəzeti redaksiyası**

## Allah rəhmət eləsin

İdris Şükürlü, Mahmud Zahidov, Gülmirzə Tağıyev, Əlizadə Kərimov

**Vaqif Bəndiyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Xüreyman Qarayev, İdris Şükürlü, Elxan Ağayev, Elman Abbasov, Etibar Həşimov, Dadruz Rəşidoğlu Qəhrəman Əliyevə əzizi

**Şənlik Əlizadənin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin kollektivi
H/№AZO5AIIB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Nizami küçəsi
Tel: (070) 520-73-91

Qəzet "Son Dakika" MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Sifariş: 88

